# DÜNYAMIZA GERÇƏKÇİ MÜNASİBƏTİN DÜŞÜNDÜRÜCÜLÜYÜ

## *Rəssam Vaqif Ucatayın yaradıcılığı barədə*



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Milli təsviri sənətimizin müstəqillik dövrünə təsadüf edən inkişaf mərhələsi yaradıcılıq axtarışları baxımından kifayət qədər rəngarəngdir, desək, həqiqəti söyləmiş olarıq. Bunu şərtləndirən səbəblər çox olsa da, başlıcası incəsənətin bütün sahələri kimi rəssamlığın da ideoloji asılılıqdan azad olmasıdır. Lakin bəzən bu azadlığın taleyini təsviri sənətə bağlayan insanlara öz dövrünün aynası olmaqda əngəl olduğuna da şahidlik edirik. Amma xalqımızın son 20-25 ildə tuş gəldiyi hadisələrə biganə qalmayan, gördüklərini və eşitdiklərini bədii-tarixi görüntüyə çevirən rəssam və heykəltəraşlarımız da az deyil. Vurğuladığımız məsələnin bədii görkəm almasında, erməni xislətini bütün eybəcərlikləri ilə təsvir etməklə onların ifşa edilməsində qeyri-adi fəallıq, vətənpərvərlik nümunəsi göstərən yaradıcılarımızdan biri də Vaqif Ucataydır.

Tanışlıq üçün deyək ki, o, ixtisas təhsilini Bakıdakı məşhur "Əzimzadə məktəbi"ndə (1972-1978) və Sankt-Peterburqdakı İ.Y.Repin adına Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (1981-1987) almışdır. Təhsilsonrası müstəqil yaradıcılığa başlayan rəssam, həm də vaxtilə təhsil aldığı məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmağa başlamışdır. Hazırda o, həm də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında gənclərə rəssamlığın sirlərini öyrətməkdədir.

Bu il 60 yaşı tamam olan Vaqif Ucatayın yaradıcılığı mövzu və janr baxımından nə qədər rəngarəng olsa da, onu daha çox xalqımızın uzaq-yaxın tarixinin bədiiləşdirilməsi maraqlandırır. Bu mənada onun Qarabağ müharibəsinə həsr etdiyi silsilə əsərləri xüsusi qeyd etmək lazımdır. Bu yerdə deyək ki, onun bu əsərləri heç də rəssam təxəyyülünün nəticəsi olmayıb, bilavasitə real faktların bədiiləşdirməsindən ibarətdir. Həmin əsərlərdə həm rəssamın gördüklərindən qürurlanmasına, həm də işğalçı düşmənə nifrətinə şahidlik etmək mümkündür. Onun "Şərəfli insanlar" (2011) tablosu rəssamla yanaşı, hər bir tamaşaçı üçün qürur qaynağı sayıla bilər. Belə ki, burada Qarabağ uğrunda döyüşlərdən şikəst qayıtmış gəncə münasibəti dəyişməyən gənc qızın ölçüyəgəlməz sevgisi ifadə olunmuşdur. İşıqlı yerlikdə görüntüyə gətirilmiş bu iki gəncin fiqurlarını səciyyələndirən inamlı duruş, hər birimizdə düşmənə nifrətimizi və onun üzərində qələbəyə inamımızı gücləndirir...

Onun Qarabağ müharibəsinə münasibəti təkcə bu əsərlə məhdudlaşmır. Rəssamın "Bax! Gör! Unutma!" silsilə əsərlərinin bənzəri yoxdur, desək, yanılmarıq. Belə ki, sayı 69-a çatan bu qrafik əsərlərin süjetini işğal olunmuş ərazidə baş vermiş dəhşətli hadisələr təşkil edir. Ermənilərin törətdikləri eybəcərlikləri bu lövhələrin hər birində cizgilərin dili ilə ifşa edən rəssam, bütünlükdə onların vəhşiliyinin ifşaedici salnaməsini yaratmağa nail olmuşdur. Bu qrafik lövhələrin önəmli xüsusiyyəti onların hamısının hadisələrə şahidlik etmiş insanların dilindən səslənən əhvalatların əsasında çəkilməsidir. Odur ki, əslində onlar sadəcə bədii təsvir olmayıb, həm də tarixi əhəmiyyət daşıyır. Bu əsərlərin 2009-cu ildə Bakıda ayrıca sərgi şəklində təqdimatının ictimaiyyət tərəfindən təqdir olunması göstərdi ki, cəmiyyətin belə əsərləri görməyə ehtiyacı vardır. Qənaətimizcə, bu qrafik əsərlərin kütləvi şəkildə çap olunması və hər il 31 Mart - azərbaycanlıların soqırımı günündə ölkəmizin dünya ölkələrindəki səfirliklərində nümayişi düşmənlərimizin işğalçı xislətinin beynəlxalq səviyyədə ifşasında təsirli rol oynaya bilərdi...

Vaqif Ucatayın 1987-ci ildə diplom işi olaraq ərsəyə gətirdiyi "Nizami işığında" rəngkarlıq əsərinin mənəviyyat tariximizin çox maraqlı səhifələrindən birini işıqlandırdığı birmənalıdır. Bildiyimiz kimi Sovet hökuməti 1941-ci ildə SSRİ məkanında Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsi haqda qərar qəbul etsə də, qəflətən İkinci Cahan Savaşının başlanması onun keçirilməsini təxirə salmağa məcbur etmişdi. Nizamisevərlər yubileyin ertələnməsindən üzülsələr də, o vaxtlar Leninqradda (indiki Sankt-Peterburq) Dövlət Ermitajının direktoru vəzifəsində çalışan İ.Orbeli hələ də tədbirin keçirilməsi arzusu ilə yaşayırmış. Buna baxmayaraq onun almanların bütün cəbhə boyu hücumunun gücləndiyi və Sovet qoşunlarının geri çəkilməyə məcbur olduğu bir vaxtda, yəni 1941-ci ilin sentyabrında yubileyin keçirilməsi arzusunu Leninqrad Vilayət Partiya Komitəsində ideoloji sahəyə rəhbərlik edən N.Tixonova bildirməsi ciddi etirazla qarşılanır. Amma o, inadkarlıq göstərməklə xüsusi vurğulayır ki, biz almanlara "Sizi bayramınızı keçirməyə qoymadıq!" sözünü deməyə imkan verməməliyik. Əlavə edək ki, şəhər artıq avqustun 8-dən blokada şəraitində yaşayırdı. Odur ki, N.Tixonov muzey direktorunun təklifini Leninqrad Vilayət Komitəsinin katibi A.Jdanova çatdırmaqda tərəddüd edir. İ.Orbeli isə geri çəkilmək istəmir, onu katiblə görüşdürməyi tələb edir. Nəhayət o, A.Jdanovla görüşüb fikrini açıqlayandan və yubileyin keçirilməsi ilə bağlı bütün düşmən təhlükəsinin nəzərə alındığını əsaslandırılmış şəkildə izah edəndən sonra katib... təslim olur. Ehtimal etmək olar ki, o, bu addımı məsələni Moskva ilə razılaşdırılandan sonra atıb. Çünki bu yubileyin ziyansız baş tutması qarşılığında müharibə ilə baş-başa qalan Sovet xalqının mübariz ruhunun möhkəmləndirilməsində önəmli rol oynaya bilərdi. Odur ki, Leninqradda Nizami bayramının keçirilməsinə icazə verilir...

Yubiley oktyabrın 19-na təyin olunur. Almanlar saat 14-17 arasında hava hücumuna ara verdiklərindən tədbirin də məhz saat 14-də başlanması qərara alınır. Hazırda Dövlət Ermitajının arxivində saxlanan sənədə əsaslansaq, deyə bilərik ki, yubileydə 95 nəfər iştirak edib. Yubiley tədbiri lap vaxtında, yəni, hava hücumunun başlanacağı vaxtdan azca əvvəl saat 16.50-də tamamlanıb. Muzey direktoru xatirələrində qeyd edir ki, biz tədbiri qurtarıb küçəyə çıxanda top lülələrinin havaya tuşlandığını gördük. Səhəri isə bütün mərkəzi qəzetlər Leninqradda Nizaminin yubileyinin qeyd olunduğundan yazırdı. Bu heç şübhəsiz bizim mənəvi qələbəmiz idi...



Hazırda Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində göstərilən bu tabloda muzeyin "Məktəbli kabineti" kimi tanınan 160 kvadratmetrlik yerdə baş tutan yubiley mərasimi təsvir olunub. İri ölçülü tabloda (208x160 sm) yubiley təntənəsi əks olunsa da, bütünlükdə əsərdə müharibə ruhu, blokada ab-havası duyulur. Yeddi metrlik pəncərələrin müharibə şəraitinə uyğun örtülməsi, yeri gələndə onların qarşısını örtməli olan pərdələrin "döyüşə hazır vəziyyətdə açılışı və heç şübhəsiz, yubiley iştirakçılarının (onların əksəriyyəti cəbhədən geri çağırılmış ədəbiyyatşünas-alimlər idilər) hərbiləşmiş qiyafələri, az qala tamaşaçını rəssamın hansısa gizli yığıncağı görüntüyə gətirdiyi qənaətinə gəlməyə məcbur edir. Heç şübhəsiz, bunu Vaqif Ucatayın baş verənləri yüksək sənətkarlıqla, inandırıcı təsvir etməsi şərtləndirir. Qənaətimizcə, bu əsəri tarixi janrdan duyulası kasadlıq çəkən təsviri sənətimizə yaddaqalan töhfə saymaq olar.



Novruz süfrəsi

Vaqif Ucatayın mənəviyyat tariximizə müraciəti bu əsərlə tamamlanmır. Onun "Dədə Qorqud" və "Ədəbiyyatşünas-alim Əziz Şərifin portreti" əsərləri də bu qəbildəndir. Bu əsərlərdə müdriklər müdriki Dədə Qorqudun mənəvi aləminə və taleyinə ömrünü vətəndən uzaqlarda yaşamaq yazılan və artıq qocalmış Əziz Şərifin təzadlı yaşantılarına yaddaqalan bədii görkəm verilmişdir.

Sonda rəssamın "Sevda" (Azərbaycan toyu") əsəri barəsində söz açmaq istərdik. Bu yaxınlarda tamamlanan əsərə Vaqif Ucatay beş il vaxt (2010-2015) sərf edib. Bu da təsadüfi deyil. Buna səbəb onun çox da böyük olmayan kompozisiyada 333 fiquru yerləşdirməsi olub. Sonu toyla bitən bu süjetdə əslində insanın dünyaya gəlişindən sonra təzadlarla dolu ömür yoluna yaddaqalan bədii işıq salınıb, desək, həqiqəti söyləmiş olarıq. Çoxsaylı fiqurların hər birini cəlbedici və düşündürücü məna-məzmunla yükləyən rəssam əslində milli adət-ənənələrimizə bu vaxta qədər nümayiş etdirilməyən bir sənətkar münasibəti sərgiləməklə, zamansızlığa qovuşduğu birmənalı olan monumental tablo yaratmağa nail olmuşdur. İnanmaq istərdik ki, bu əsərin ictimailəşməsi və mərkəzi muzeylərimizdən birinin ekspozisiyasında yer almasına aidiyyəti qurumlar qayğı göstərəcəklər...



Azərbaycan toyu



Nizami işığında



Şərəfli insanlar